| | |
|---|---|
| **AKTIN NÖVÜ** | **AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI** |
| **QƏBUL EDİLDİYİ TARİX** | **26.12.2014** |
| **QEYDİYYAT NÖMRƏSİ** | **432** |
| **ADI** | **“Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi”nin təsdiq edilməsi haqqında** |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | **Respublika Qəzeti (Dərc olunma tarixi: 27-12-2014, Nəşr nömrəsi: 285), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-12-2014, Nəşr nömrəsi: 12, Maddə nömrəsi: 1585)** |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | **27.12.2014** |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | **190.010.000** |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | **13201412260432** |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **29.12.2014** |

**“Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi”nin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Bakı Xoreoqrafiya Akademiyasının fəaliyyətini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. “Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. Bakı Xoreoqrafiya Akademiyasının fəaliyyətinin təşkili ilə bağlı zəruri maliyyə və maddi-texniki təminat məsələlərini həll etsin;

2.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

3.1. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

3.2. Bakı Xoreoqrafiya Akademiyasının dövlət qeydiyyatına alınmasını bir ay müddətində təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 dekabr 2014-cü il
432

Azərbaycan Respublikası Prezidentinin
2014-cü il 26 dekabr tarixli 432 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Bakı Xoreoqrafiya Akademiyasının**

**NİZAMNAMƏSİ**

## 1. Ümumi müddəalar

1.1. Bakı Xoreoqrafiya Akademiyası (bundan sonra - Akademiya) Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 30 aprel tarixli 419 nömrəli Sərəncamı ilə yaradılmışdır.

1.2. Akademiya ümumi, orta ixtisas, ali və əlavə təhsil proqramlarını həyata keçirən, klassik balet, dünya xalq və Azərbaycan rəqsləri üzrə ali təhsilli kadrlar hazırlayan, fundamental, *nəzəri-metodoloji, pedaqoji-metodiki* və tətbiqi elmi tədqiqatlar aparan dövlət təhsil kompleksidir.[1]

1.3. Akademiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Mədəniyyət ~~və Turizm~~ Nazirliyinin və Azərbaycan Respublikası *Elm və Təhsil* Nazirliyinin normativ hüquqi aktlarını, Azərbaycan Respublikası mədəniyyət ~~və turizm~~ nazirinin əmr və sərəncamlarını və bu Nizamnaməni rəhbər tutur. [2]

1.4. Akademiya hüquqi şəxsdir, onun müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Mədəniyyət ~~və Turizm~~ Nazirliyinin və öz adı həkk olunmuş möhürü, ştampları və blankları vardır. [3]

1.5. ~~Akademiyanın fəaliyyətinə *lisenziyanın* verilməsi və~~ Akademiyanın akkreditasiyası “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun həyata keçirilir.[4]

1.6. Akademiya Azərbaycan Respublikasının dövlət orqanları və digər dövlətlərin müvafiq qurumları ilə əməkdaşlıq şəraitində fəaliyyət göstərir.

1.7. Akademiya “Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik, “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq maliyyə və Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyinə fəaliyyətinin nəticələri barədə hesabatları təqdim edir.

1.8. Akademiya Bakı şəhərində yerləşir.

## 2. Akademiyanın fəaliyyətinin əsas istiqamətləri

2.1. Akademiyanın fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır:

2.1.1. yüksəkixtisaslı mütəxəssislərin və elmi-pedaqoji kadrların hazırlanması;
2.1.2. ümumi, orta ixtisas, ali və əlavə təhsil proqramlarının həyata keçirilməsi;
2.1.3. milli, estetik, mədəni və elmi dəyərlərin qorunması və inkişafı;
2.1.4. fundamental*, nəzəri-metodoloji, pedaqoji-metodiki* və tətbiqi elmi tədqiqatların aparılması.
2.2. Akademiya bilavasitə və tabeliyində olan təhsil müəssisələri vasitəsi ilə aşağıdakı təhsil pillələri üzrə təhsil proqramlarını həyata keçirir:
2.2.1. ümumi təhsil:
2.2.1.1. ibtidai təhsil;
2.2.1.2. ümumi orta təhsil;
*2.2.1.3. tam orta təhsil;*[5]
2.2.2. orta ixtisas təhsili;
2.2.3. ali təhsil:
2.2.3.1. bakalavriat;
2.2.3.2. magistratura;
2.2.3.3. doktorantura.
2.3. Təhsilin pillələri və səviyyələri üzrə fəaliyyət “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aparılır.
2.4. Akademiya metodiki işin və ixtisas standartlarının təşkili və təkmilləşdirilməsi, tədris-metodik tövsiyələrin, dərs vəsaitlərinin, elmi-metodik sənədlərin və ədəbiyyatın hazırlanması işini həyata keçirir, bədii-yaradıcılıq istiqamətində iş aparır.

## 3. Akademiyanın hüquq və vəzifələri

3.1. Akademiyanın aşağıdakı hüquqları vardır:
3.1.1. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa və bu Nizamnaməyə uyğun olaraq tədris prosesini sərbəst həyata keçirmək;
3.1.2. tədris, metodik, elmi tədqiqat və analitik-informasiya fəaliyyətlərini planlaşdırmaq və təşkil etmək;
3.1.3. tədris prosesinin metodik təminatını təşkil etmək və təkmilləşdirmək, təlimin forma və metodlarını müəyyən etmək, dövlət təhsil standartlarına və ayrı-ayrı ixtisaslar (ixtisaslaşmalar) üzrə təhsil proqramlarına uyğun olaraq, tədris sənədlərini və tədris prosesinin təşkilinə aid digər sənədləri müstəqil hazırlamaq;
3.1.4. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, təhsilin nəticələrinə görə təhsilalanların peşəkar biliklərini və işgüzar keyfiyyətlərini qiymətləndirmək və həmin bilik və keyfiyyətlərdən müvafiq xidmət sahələrində istifadə olunması barədə onlara tövsiyələr vermək;
3.1.5. profilinə uyğun elmi tədqiqat işlərini həyata keçirmək və elmi-metodik sənədlər hazırlamaq;
3.1.6. elmi əlaqələr yaratmaq, təhsillə bağlı layihələrdə, o cümlədən beynəlxalq layihələrdə iştirak etmək;
3.1.7. iclaslar, seminarlar, konfranslar, simpoziumlar, olimpiadalar, müsabiqələr, festivallar, sərgilər keçirmək və onların işində iştirak etmək;
3.1.8. Akademiyanın fəaliyyəti ilə bağlı nəşriyyat işlərini həyata keçirmək, elmi əsərləri, tədris və tədris-metodik ədəbiyyatları hazırlamaq və nəşr etmək;
3.1.9. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müqavilə əsasında ödənişli təhsil xidmətləri göstərmək;
3.1.10. Akademiyanın strukturunun təkmilləşdirilməsi, ştat cədvəlində dəyişikliklər edilməsi və maddi-texniki təminatının yaxşılaşdırılması ilə bağlı Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyinə təkliflər vermək;
3.1.11. Akademiyanın işçilərinə fəxri adlar, dövlət təltifləri və mükafatlar verilməsi üçün Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyi qarşısında vəsatət qaldırmaq;
3.1.12. dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə Akademiyanın fəaliyyət istiqamətləri üzrə məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;
3.1.13. “Təhsil haqqında” *və “Elm haqqında” Azərbaycan Respublikasının qanunlarına* uyğun olaraq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin müvafiq qurumları ilə əməkdaşlıq etmək və təcrübə mübadiləsi aparmaq, tələbə, magistr, doktorant, müəllim və elmi işçilər mübadiləsi üçün beynəlxalq əlaqələr yaratmaq; [6]
3.1.14. Akademiyanın fəaliyyətinin təşkili məqsədi ilə qanuna zidd olmayan aktlar qəbul etmək;
3.1.15. Akademiyada təhsilalanların və təhsilverənlərin qida və tibbi ehtiyacını, yataqxanaya ehtiyacı olanların yaşayış şəraitini təşkil etmək;
3.1.16. Akademiyanın təminatı, işlərin görülməsi və xidmətlərin göstərilməsi məqsədi ilə müqavilələr bağlamaq;
3.1.17. Akademiyanın fəaliyyətini təmin etmək məqsədi ilə əqdlər bağlamaq;
3.1.18. elektron resurslar yaratmaq;
3.1.19. konsert və sərgilər təşkil etmək, audio-video materialları, Akademiyanın adı ilə bağlı suvenirlər istehsal etmək.
3.2. Akademiyanın təhsil, tərbiyə və elm mərkəzi kimi vəzifələri aşağıdakılardır:
3.2.1. yüksəkixtisaslı mütəxəssislər hazırlamaq, kadrların əlavə təhsilini həyata keçirmək, elmi və elmi-pedaqoji kadr hazırlamaq;
3.2.2. təhsil proqramlarını və tədris planlarını hazırlamaq;
3.2.3. *“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq,* təhsilalanların attestasiyasını keçirmək;[7]
3.2.4. beynəlxalq fəaliyyəti və xarici əlaqələri təmin etmək;
3.2.5. tədris prosesinin maddi-texniki təminatını həyata keçirmək, bina və otaqları mövcud norma və tələblərə uyğun qurmaq;
3.2.6. təlim-tərbiyə prosesini yüksək səviyyədə təşkil etmək, təhsilalanların intellektual, mədəni və mənəvi inkişafını

təmin etmək, peşəkarlıq xüsusiyyətlərini formalaşdırmaq;

3.2.7. klassik və müasir balet, dünya və xalq rəqsləri sahəsində elmi tədqiqat işlərini təşkil etmək;

3.2.8. fundamental, *nəzəri-metodoloji, pedaqoji-metodiki* və tətbiqi elmi araşdırmalar aparmaq, dövlət qurumları üçün məlumat-analitik, elmi-metodik materiallar və tövsiyələr hazırlamaq;

3.2.9. Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyi sistemində ehtiyat kadrların formalaşdırılması işində iştirak etmək;

3.2.10. Akademiyaya ayrılan maliyyə vəsaitindən təyinatı üzrə istifadə olunmasını təmin etmək;

3.2.11. təhsil prosesinin təmin edilməsi üçün tədris, tədris-metodik, elmi ədəbiyyat, köməkçi materiallar hazırlamaq və nəşr etmək, maddi-tədris bazasını təkmilləşdirmək və inkişaf etdirmək;

3.2.12. dövlət sirrinin və məxfilik rejiminin qorunması və təhlükəsizliyin təmin olunması üçün zəruri tədbirlər görmək;

3.2.13. Akademiyanın istifadəsində olan daşınar və daşınmaz əmlakın qorunmasını və məqsədli istifadəsini təmin etmək;

3.2.14. Akademiyada əməyin mühafizəsini və sanitar-gigiyenik normalara riayət olunmasını təmin etmək;

3.2.15. öz fəaliyyəti barədə ictimaiyyəti məlumatlandırmaq, internet saytı yaratmaq, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin etmək.

## 4. Akademiyanın strukturu və idarə edilməsi

4.1. Akademiyada fakültələr, kafedralar, tədris şöbələri, kitabxanalar, elmi tədqiqat laboratoriyaları, doktorantura və əlavə təhsil üçün müvafiq bölmələr, qeydiyyat şöbələri, katiblik, idman zalları, tədris teatr və studiyaları, konsert zalları, konfrans və sərgi salonları, iaşə məntəqəsi və digər struktur bölmələri fəaliyyət göstərir.

4.2. Akademiyanın strukturunu və ştat cədvəlini, Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, Akademiyanın rektoru təsdiq edir.

4.3. Akademiya "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa və bu Nizamnaməyə uyğun olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı əsasında filiallar açmaq hüququna malikdir. Akademiya filialının rəhbərini (direktorunu) Akademiya rektorunun təqdimatına əsasən Azərbaycan Respublikasının mədəniyyət ~~və turizm~~ naziri vəzifəyə təyin və vəzifədən azad edir. [8]

4.4. Akademiyanın rəhbərliyi Akademiyanın rektorundan və Akademiyanın 4 prorektorundan ibarətdir.

4.5. Akademiyanın rektoru Azərbaycan Respublikası mədəniyyət ~~və turizm~~ nazirinin təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən, Akademiyanın prorektorları isə Akademiya rektorunun təqdimatına əsasən Azərbaycan Respublikasının mədəniyyət ~~və turizm~~ naziri tərəfindən vəzifəyə təyin və azad edilir.

4.6. Akademiyanın fəaliyyətinə rəhbərliyi Akademiyanın rektoru həyata keçirir.

4.7. Akademiyanın rektoru:

4.7.1. Akademiyanın vəzifələrinin yerinə yetirilməsinə və hüquqlarının həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır;

4.7.2. Akademiyanın təhsil, təlim-tərbiyə, tədris, elmi tədqiqat, nəşriyyat və maliyyə-təsərrüfat fəaliyyətinə rəhbərlik edir;

4.7.3. dövlət qurumlarında, təşkilatlarda, beynəlxalq təşkilatlarla münasibətlərdə Akademiyanı təmsil edir, Akademiyanın adından əqdlər bağlayır, etibarnamələr verir, banklarda ~~və digər kredit təşkilatlarında~~ hesablar açır; [9]

4.7.4. Akademiyanın daxili intizam qaydalarını təsdiq edir;

4.7.5. Akademiyada maddi vəsaitlərin uçotunu təşkil edir, onlardan istifadəyə nəzarət edir, Akademiyanın əmlakına və vəsaitlərinə dair sərəncam verir;

4.7.6. Akademiyanın fəaliyyəti ilə bağlı məsələlərin Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyi kollegiyasının müzakirəsinə çıxarılmasına təşəbbüs göstərir, həmin məsələlərin kollegiyanın müzakirəsinə hazırlanmasını təmin edir;

4.7.7. Azərbaycan Respublikası Mədəniyyət ~~və Turizm~~ Nazirliyinin iş planında və kollegiyasının qərarlarında, Azərbaycan Respublikası mədəniyyət ~~və turizm~~ nazirinin əmr və sərəncamlarında nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini təmin edir;

4.7.8. bu Nizamnaməyə uyğun olaraq, icrası məcburi olan əmr, sərəncam və digər yazılı göstərişlər verir;

4.7.9. Akademiyanın işçilərinə fəxri adların, dövlət təltiflərinin və mükafatların verilməsi barədə Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyinə təqdimat verir;

4.7.10. Akademiya prorektorlarının, struktur bölmələrinin rəhbərlərinin (filiallar istisna olmaqla) və digər işçilərin səlahiyyətlərini müəyyən edir, vəzifə təlimatlarını təsdiq edir;

4.7.11. Akademiyanın işçilərinin əməyinin ödənilməsini və onların həvəsləndirilməsini təşkil edir;

4.7.12. Akademiyada kargüzarlıq və arxiv işinin aparılmasını, dövlət sirrinin qorunmasını, təhlükəsizlik tədbirlərinin həyata keçirilməsini və məxfilik rejiminə riayət olunmasını təmin edir;

4.7.13. Akademiyada vətəndaşların qəbulunu və müraciətlərinə baxılmasını təmin edir;

4.7.14. Akademiyanın fəaliyyəti ilə bağlı Akademiyanın Elmi Şurasının səlahiyyətlərinə aid edilməyən digər məsələləri həll edir.

4.7.15. Akademiyanın rektoru ayrı-ayrı səlahiyyətlərinin icrasını müvafiq əmrlə Akademiyanın prorektorlarına və Akademiyanın digər vəzifəli şəxslərinə həvalə edə bilər.

4.8. Akademiyanın fəaliyyətinin mühüm məsələlərini müzakirə etmək üçün ali idarəetmə orqanı - Akademiyanın Elmi Şurası (bundan sonra - Elmi Şura) yaradılır.

4.9. Akademiyanın struktur bölmələrinin fəaliyyəti Elmi Şuranın qəbul etdiyi və Akademiya rektorunun təsdiq etdiyi əsasnamələrlə müəyyən olunur.

4.9.1. Elmi Şuranın tərkibini Azərbaycan Respublikasının mədəniyyət ~~və turizm~~ naziri təsdiq edir. Elmi Şuranın

tərkibinə Akademiyanın rektoru (Elmi Şuranın sədri), prorektorlar, fakültə dekanları, aparıcı kafedraların müdirləri və digər mütəxəssislər daxil edilir.

4.9.2. Elmi Şura sədrinin müavinləri və katibi Elmi Şuranın tərkibindən seçilir. Elmi Şuranın səlahiyyət müddəti 3 ildir. Elmi Şura üzvlərinin səlahiyyətlərinə Elmi Şuranın qərarı ilə vaxtından əvvəl xitam verilə bilər. Elmi Şuranın vaxtından əvvəl yenidən yaradılması onun üzvlərinin azı üçdə iki hissəsinin tələbi ilə həyata keçirilir.

4.9.3. Elmi Şuranın fəaliyyəti Azərbaycan Respublikası Mədəniyyət ~~və Turizm~~ Nazirliyinin normativ hüquqi aktlarının və Azərbaycan Respublikası *Elm və Təhsil* Nazirliyinin təsdiq etdiyi "Elmi Şura haqqında Əsasnamə"nin tələblərinə uyğun təşkil edilir. Elmi Şura ictimai əsaslarla fəaliyyət göstərir.

4.9.4. Elmi Şuranın iclasları iki ayda bir dəfədən az olmamaq şərti ilə keçirilir. Elmi Şuranın qərarları Akademiya rektorunun əmri ilə təsdiq edilir.

4.10. Akademiyanın Elmi Şurası:

4.10.1. Akademiyanın inkişaf proqramını təsdiq edir, Akademiyanın fəaliyyəti barədə rektorun illik hesabatını dinləyir;

4.10.2. tədris, təlim-tərbiyə, metodik və elmi tədqiqat işlərinin mühüm məsələlərini həll edir, qəbul sınaqlarını təşkil edir;

4.10.3. kadrların hazırlanması və əlavə təhsili istiqamətində təkliflər verir;

4.10.4. tədris planlarının və proqramlarının layihələrini, metodik, təlim-tərbiyə, elmi tədqiqat, redaksiya-nəşriyyat işlərinin və əlavə təhsil planlarının layihələrini müzakirə edir;

4.10.5. Akademiyanın struktur bölmələrinin hesabatlarını dinləyir;

4.10.6. dərsliklərin, dərs vəsaitlərinin, monoqrafiyaların, elmi və elmi-metodik ədəbiyyatın digər növlərinin layihələrini müzakirə edir;

4.10.7. yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması istiqamətində iş aparır;

4.10.8. Akademiyanın *işçilərinə elmi və elmi-pedaqoji fəaliyyətə görə* elmi adlar verilməsi üçün vəsatət qaldırır;[10]

4.10.9. dissertasiyaların mövzularını *müəyyən* edir;[11]

4.10.10. Akademiyanın maddi-texniki bazasının təkmilləşdirilməsi və inkişaf etdirilməsi ilə bağlı məsələləri müzakirə edir;

4.10.11. adlı təqaüdlər verilməsi üçün namizədlərin siyahısını təsdiq edir;

4.10.12. Akademiyanın strukturu barədə Akademiyanın rektoruna təkliflər verir;

4.10.13. elmi tədqiqatların prioritet istiqamətlərini müəyyən edir, elmi tədqiqat planlarını və onların yerinə yetirilməsinə dair hesabatları, pedaqoji kadrların hazırlanması və əlavə təhsili planlarını təsdiq edir;

4.10.14. doktoranturaya qəbul edilməsi, dissertant təhkim olunması, habelə yaradıcılıq məzuniyyətlərinin verilməsi üçün müraciət etmiş şəxslər sırasından namizədləri tövsiyə edir;

4.10.15. Akademiyanın fəxri adlarını təsis edir;

4.10.16. Akademiyanın təhsil birliklərinə, assosiasiyalarına və ittifaqlarına daxil olması və onlardan çıxması məsələlərinə dair Akademiyanın rektoruna təkliflər verir;

4.10.17. Akademiya rektorunun Akademiyanın illik büdcəsi və onun icrası barədə hesabatını dinləyir.

4.11. Elmi Şuranın qərarları Akademiyanın rektoru tərəfindən təsdiq olunduqdan sonra qüvvəyə minir. Elmi Şuranın iclasları protokollaşdırılır.

4.12. Akademiyanın ümumi və orta ixtisas təhsili üzrə idarəetmə orqanı Pedaqoji Şuradır.

4.13. Pedaqoji Şuranın yaradılması və fəaliyyəti Azərbaycan Respublikasının *Elm və Təhsil* Nazirliyi tərəfindən təsdiq edilən "Pedaqoji Şura haqqında Əsasnamə" və bu Nizamnamə ilə tənzimlənir.

4.14. Pedaqoji Şuranın tərkibinə Akademiyanın rektoru (sədr), bədii rəhbər, prorektorlar, şöbə müdirləri, fənn birləşmə komissiyalarının sədrləri, sinif rəhbərləri, fəxri adları olan qabaqcıl müəllimlər, dərsdənkənar işlər üzrə təşkilatçı, həmkarlar komitəsinin sədri və valideyn komitəsinin sədri daxil edilir.

Pedaqoji Şuranın tərkibi Akademiyanın rektorunun əmr ilə 1 il müddətinə təsdiq edilir. Pedaqoji Şura öz tərkibindən hər tədris ili üçün açıq səsvermə yolu ilə Şuranın katibini seçir.

Pedaqoji Şuranın üzvü olmayan müəllimlər Şuranın iclaslarında iştirak və çıxış edə bilərlər.

4.15. Pedaqoji Şura aşağıdakıları müzakirə edib müvafiq qərar qəbul edir:

4.15.1. Akademiyanın iş planını, müəllimlərin dərs yükünü, pedaqoji prosesin, şagird və tələbələrin, bütün kollektivin yüksək bədii səviyyəsini təmin edən tədris-metodiki və digər sənədləri;

4.15.2. Akademiyanın təlim-tərbiyə və metodiki işləri barədə rektorun, bədii rəhbərin, prorektorların məlumatlarını, şöbə müdirlərinin, fənn birləşmə komissiyası sədrlərinin hesabat və məlumatlarını;

4.15.3. tədris plan və proqramlarının yerinə yetirilməsi, şagird və tələbələrin bilik keyfiyyəti və digər göstəricilər barədə sinif rəhbərlərinin, fənn kabinet müdirlərinin, müəllimlərin, Akademiyanın işçilərinin məlumat və çıxışlarını;

4.15.4. Akademiyanın iş rejimini, tədris həftəsinin müddətini, sinifdən-sinfə (kursdan-kursa) keçmə imtahanlarının zəruriliyini, sayını və formasını, imtahana düşən fənləri;

4.15.5. şagird və tələbələrin imtahana buraxılması, sinifdən-sinfə (kursdan-kursa) keçirilməsi, ümumi orta təhsil *, tam orta təhsil* və orta ixtisas təhsili haqqında dövlət sənədlərinin verilməsi, şagird və tələbələrin həvəsləndirilməsi, həmçinin başqa pedaqoji təsir kömək etmədikdə, şagird və tələbələrin Akademiyadan xaric olunması məsələsini;[12]

4.15.6. Akademiyanın fəaliyyəti barədə digər məsələləri.

4.16. Pedaqoji Şuranın iclasları 2 aydan gec olmayaraq çağırılır. Pedaqoji Şuranın növbədənkənar iclasları çağırıla bilər. Şuranın iclasları üzvlərinin üçdə iki hissəsi iştirak etdikdə səlahiyyətli sayılır.

4.17. Pedaqoji Şuranın qərarı sadə səs çoxluğu ilə qəbul olunur. Səslər bərabər olduqda Şura sədrinin (rektorun) səsi həlledici sayılır. Şuranın qərarı Akademiya rektorunun əmri ilə qüvvəyə minir.

4.18. Akademiyanın Bədii Şurası məşvərətçi orqandır.

4.19. Bədii Şura:

4.19.1. bədii rəhbərin, istehsalat təcrübəsi rəhbərinin, şöbə müdirlərinin dərs ili üçün perspektiv iş planlarını, ixtisas

fənləri üzrə tədris proqramlarını müzakirə edir və tövsiyələr verir;

4.19.2. ixtisas fənləri üzrə dövlət tədris plan və proqramlarının hər bir müəllim tərəfindən yerinə yetirilməsi, təlim prosesinin keyfiyyəti, bədii-estetik səviyyəsi, istedadlı şagird və tələbələrlə aparılan fərdi yaradıcılıq işlərinin vəziyyəti, şagird və tələbələrin səhnə və istehsalat təcrübəsinin təşkili və aparılması, baza teatrı ilə yaradıcılıq əlaqələrinə aid məsələləri müzakirə edir, yekunlaşdırır, qiymətləndirir, bu işlərin səmərəliliyinin artırılması yollarını müəyyənləşdirir;

4.19.3. şagird və tələbələrin yaradıcılıq-hesabat konsertlərinin, digər açıq və qapalı konsertlərin proqramlarını, konserti hazırlayan müəllimlərin, ifaçıların fəaliyyətini müzakirə edir, qiymətləndirir, daha yüksək göstəricilərə nail olanların mənəvi və maddi cəhətdən həvəsləndirilməsi barədə təkliflər verir;

4.19.4. ixtisas fənn müəllimlərinin pedaqoji ustalıqlarının artırılması məsələlərini, pedaqoji-yaradıcılıq konfrans və seminarların proqramlarını müzakirə edir;

4.19.5. ixtisas üzrə sinifdən-sinfə (kursdan-kursa) keçid imtahanları aparılacaq fənləri müəyyənləşdirir, imtahan komissiyalarının tərkibi barədə təkliflər verir.

4.20. Bədii Şuranın tərkibinə Akademiyanın rektoru (sədr), bədii rəhbər, istehsalat təcrübəsi müdiri, fəxri adları olan, habelə aparıcı rəqs müəllimləri, baza teatrlarından aparıcı mütəxəssislər və tanınmış səhnə ustaları daxil edilir.

4.21. Bədii Şuranın tərkibi Akademiyanın rektorunun əmri ilə 1 il müddətinə təsdiq edilir. Bədii Şura öz tərkibindən hər tədris ili üçün açıq səsvermə yolu ilə Şuranın katibini seçir.

4.22. Bədii Şuranın iclasları tədris ilinin hər rübündə bir dəfədən az olmayaraq çağırılır. Şuranın növbədənkənar iclasları da çağırıla bilər.

4.23. Bədii rəhbər:

4.23.1. ixtisas fənləri üzrə müəllimlərin peşəkar yaradıcılıq və metodiki işlərinə nəzarət edir, məsuliyyət daşıyır;

4.23.2. müəllimlərin peşəkar yaradıcılıq fəaliyyətinin daha da yaxşılaşdırılması və təkmilləşdirilməsi yollarını müəyyənləşdirir, Bədii Şuranın iclaslarını hazırlayır, yaradıcılıq konfranslarının keçirilməsi barədə Elmi və Bədii şuralara təkliflər verir, belə konfransların proqramlarını tərtib edir;

4.23.3. tələbə və şagirdlərlə aparılan təlim işinin bədii-estetik səviyyəsini daha da yüksəltmək üçün tədbirlər görür;

4.23.4. klassik, xalq və idman-bal rəqsləri üzrə istedadlı şagird və tələbələrin aşkar olunmasını, onlarla xüsusi proqramlar əsasında işlərin aparılmasını, Akademiyada daxili müsabiqələrin keçirilməsini təşkil edir. Gənc rəqqasların Azərbaycan Respublikasında və xarici ölkələrdə keçirilən müsabiqələrdə iştirakı üçün ixtisas fənn müəllimləri ilə birlikdə namizədləri müəyyən edir və bu barədə Elmi və Bədii şuralara təkliflər verir;

4.23.5. şagird və tələbələrin istehsalat təcrübəsini təşkil edir, Akademiyanın təhkim olunduğu teatrlarla əlaqə saxlayır;

4.23.6. açıq və qapalı konsertlərin, bədii-kütləvi tədbirlərin hazırlanıb keçirilməsini təşkil edir, repertuar və konsert proqramlarını tərtib edir və təsdiq olunması üçün rektora təqdim edir;

4.23.7. Bədii Şurada müzakirə olunacaq materialları hazırlayır və baxılması üçün Bədii Şuraya təqdim edir.

4.24. Bədii rəhbər Akademiyada öz ixtisasına uyğun pedaqoji iş aparır.

4.25. Fakültə Akademiyanın tədris və elmi-inzibati bölməsi olub, eyni sahə və istiqamət daxilində bir-birinə yaxın olan ixtisaslar üzrə bakalavr və magistr hazırlanması, müvafiq sahə üzrə mütəxəssislərin (kadrların) ixtisasının artırılması və yenidən hazırlanması işini həyata keçirir, eləcə də elmi tədqiqat və tərbiyə işlərinə rəhbərlik edir.

4.26. Akademiyanın fakültələrinə ümumi rəhbərliyi fakültə elmi şurası həyata keçirir. Fakültə elmi şurası Akademiya rektorunun əmrinə əsasən 3 il müddətinə seçilir. Fakültə elmi şurasının sədri - dekandır. Fakültə elmi şurasının tərkibini Akademiyanın rektoru təsdiq edir. Fakültə elmi şurasının tərkibi və səlahiyyətləri Azərbaycan Respublikası *Elm və Təhsil* Nazirliyinin təsdiq etdiyi “Elmi Şura haqqında Əsasnamə” ilə tənzimlənir.

4.27. Kafedra Akademiyanın əsas tədris-elm struktur bölməsi olub, bir və ya bir neçə yaxın fənlər üzrə tədris, metodik, elmi tədqiqat fəaliyyətini və əlavə təhsili həyata keçirir.

4.28. Akademiyada elmi-pedaqoji (təhsilverənlər, elmi işçilər), mühəndis-texnik, inzibati, inzibati-təsərrüfat, tədris-köməkçi və digər heyətlər üzrə vəzifələr nəzərdə tutulur.

## 5. Akademiyaya qəbul

5.1. Akademiyaya qəbul “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təşkil edilir.

5.2. Akademiyaya şagirdlər aşağıdakı qaydada qəbul olunurlar:

5.2.1. irqindən, *etnik mənsubiyyətindən*, dinindən, mənşəyindən, cinsindən, əqidəsindən, sosial vəziyyətindən asılı olmayaraq, fiziki cəhətdən sağlam, xoreoqrafiya təlimi üçün müvafiq qabiliyyətə malik olan, Azərbaycan Respublikasının vətəndaşları, Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, habelə xarici ölkələrin vətəndaşları qəbul komissiyası tərəfindən müsabiqə yolu ilə müvafiq yaş qrupu üzrə aşağıda göstərilən şöbə və siniflərə qəbul olunurlar:[13]

5.2.1.1. 1-4-cü siniflərə (klassik rəqs bölməsinə hazırlıq kurslarına) – 6-10 yaşlı;

5.2.1.2. klassika şöbəsinə – orta ümumtəhsil məktəbinin 4-cü sinfini bitirmiş 10-11 yaşlı;

5.2.1.3. xalq şöbəsinə – orta ümumtəhsil məktəbinin 7-ci sinfini bitirmiş 13-14 yaşlı;

5.2.1.4. idman-bal rəqsləri şöbəsinə – orta ümumtəhsil məktəbinin 9-cu sinfini bitirmiş 16 yaşadək şagirdlər.

5.3. Akademiyaya ali təhsilin bakalavr səviyyəsinə tam orta təhsilli və orta ixtisas təhsilli şəxslər, magistratura səviyyəsinə bakalavr səviyyəsini bitirən şəxslər, ixtisasın sərbəst seçimi əsasında, müsabiqə yolu ilə qəbul olunurlar.

5.4. Akademiyaya tələbə qəbulu biliyin qiymətləndirilməsi üzrə keçirilən imtahanlarda abituriyentlərin əldə etdikləri nəticələrə əsasən, Azərbaycan Respublikasının *Dövlət İmtahan Mərkəzi* tərəfindən həyata keçirilir.[14]

5.5. Akademiyanın bakalavriat, magistratura, doktorantura səviyyələrinə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qəbulu Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, *Azərbaycan Respublikası Prezidentinin təsis etdiyi təhsil qrantı proqramı* əsasında, habelə ödənişli əsaslarla həyata keçirilir.[15]

*5.6. Akademiyaya müvafiq ixtisaslar üzrə tələbə qəbulunu Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən*

*edir.*[16]

## 6. Akademiyada tədrisin təşkili

6.1. Akademiyada "Xoreoqrafiya sənəti" ixtisası üzrə tədris aşağıdakı qaydada təşkil olunur:
6.1.1. klassik rəqs bölməsinə hazırlıq üzrə: 1-4-cü siniflər (4 il);
6.1.2. klassik rəqs bölməsi üzrə: 5-9-cu siniflər və I-III kurslar (7 il 10 ay);
6.1.3. xalq rəqsləri bölməsi üzrə: 8-9-cu siniflər və I-III kurslar (4 il 10 ay).

6.2. Akademiyada "Xoreoqrafiya sənəti" ixtisası üzrə 7 il 10 ay klassik bölmədə və 4 il 10 ay xalq bölməsində orta ixtisas təhsilli mütəxəssislərin hazırlanmasında qeyri-tipik xüsusiyyətli spesifikanı nəzərə alaraq, dərs ilinin sonunda tələbələrin fiziki və yaradıcı göstəricilərini, eləcə də ixtisas proqramlarını mənimsəmə dərəcəsinin qiymətləndirilməsi məqsədi ilə sinifdən-sinfə və kursdan-kursa keçirilmə üçün yoxlama dərs, məqbul və keçid imtahanları aparılır.

6.3. Əyani tədris forması üzrə ali ixtisas təhsilinin təhsil proqramlarının mənimsəmə müddəti Akademiyanın Elmi Şurası tərəfindən dövlət təhsil standartlarının ali ixtisas təhsilinə aid tələblərinə uyğun olaraq müəyyən edilir. Əyani və qiyabi tədris şöbələrində, o cümlədən müxtəlif tədris formalarının birləşmələri halında, ali ixtisas təhsil proqramlarının həyata keçirilməsi Akademiyanın Elmi Şurasının qərarı əsasında əyani tədris formasının müddəti ilə müqayisədə 1 (bir) ilə qədər artırıla bilər. Müvafiq ixtisası olan orta ixtisas təhsilli və ya müxtəlif dərəcəli ali ixtisas təhsilli şəxslərin, o cümlədən daha qısa müddətə ali ixtisas təhsilinin əsas təhsil proqramını tam həcmdə mənimsəmə bacarığı olan şəxslərin, ali ixtisas təhsil proqramı üzrə tədris müddəti qısaldıla bilər. Qeyd olunan şəxslərin ali ixtisas təhsilinin əsas təhsil proqramlarının qısaldılmış müddətə mənimsəmə şərtləri Azərbaycan Respublikası *Elm və Təhsil* Nazirliyinin və Azərbaycan Respublikası Mədəniyyət ~~və Turizm~~ Nazirliyinin normativ hüquqi aktları əsasında təyin edilir.

6.4. Akademiyada tədris dili - Azərbaycan dilidir. Təlim Akademiyanın imkanları nəzərə alınmaqla, xarici dillərdə də aparıla bilər.

6.5. Akademiyada təhsil proqramları üzrə dərs prosesinin təşkili dövlət təhsil standartlarının ümumi, orta və ali ixtisas təhsili, tədris planı və dərs cədvəli ilə uyğunlaşdırılır.

6.6. Ali təhsilin bakalavriat və magistratura səviyyələrinin proqramları təhsilalanların dövlət attestasiyası ilə yekunlaşır. Dövlət attestasiyası bütün təhsilalanlar üçün məcburidir. *Təhsilalanların attestasiyasının aparılması qaydasını Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi müəyyən edir.* ~~Dövlət Attestasiya Komissiyasının yaradılması və işinin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada həyata keçirilir.~~[17]

~~6.7. Akademiyada əyani forma üzrə dövlət hesabına təhsilalanların fəaliyyətini stimullaşdırmaq məqsədi ilə təqaüdlər verilir.~~[18]

6.8. Akademiyanın orta ixtisas, bakalavriat və magistratura təhsil proqramlarını başa vurmuş və yekun dövlət attestasiyasından keçmiş tələbələrə *"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə elektron sənəd formasında yaradılan təhsil haqqında dövlət sənədi* (diplom) verilir. Həmin diplomun əlavəsində təhsilalanlar tərəfindən mənimsənilmiş fənlər, onların kreditlə həcmi və qiymətlər göstərilir.[19]

6.9. Akademiyada mütəxəssis, *elmi* və elmi-pedaqoji kadr hazırlığı ali təhsilin bakalavriat, magistratura və doktorantura səviyyələrindən ibarətdir. [20]

6.10. Akademiyada bakalavriat səviyyəsində təhsilalma yalnız əyani formada, magistratura səviyyəsində isə əyani və qiyabi formalarda təşkil olunur. Bakalavriat səviyyəsində əyani forma üzrə təhsilin normativ müddəti 4-5 ildir. Magistratura səviyyəsində əyani forma üzrə təhsilin normativ müddəti 1,5-2 ildir, qiyabi forma üzrə təhsilin müddəti 6 ay artıqdır.

6.11. Akademiyada bakalavriat və magistratura təhsili "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təşkil edilir.

6.12. Akademiyada doktoranturanın yaradılması və doktoranturaya qəbul qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

6.13. Akademiyada çalışan elmi-pedaqoji kadrlara elmi dərəcələrin verilməsi dissertantlıq yolu ilə də reallaşdırılır. Akademiyanın müvafiq kafedralarına dissertantların təhkim olunması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada həyata keçirilir.

6.14. Akademiyanın əməkdaşlarına elmi dərəcələr və elmi adlar Azərbaycan Respublikası Prezidentinin *2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"yə və "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"yə* uyğun olaraq verilir. [21]

6.15. Akademiyada əlavə təhsil "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa və bu Nizamnaməyə uyğun olaraq təşkil edilir.

6.16. Akademiyada əlavə təhsil aşağıdakı istiqamətlərdə həyata keçirilir:
6.16.1. ixtisasartırma;
6.16.2. kadrların yenidən hazırlanması;
6.16.3. stajkeçmə və kadrların təkmilləşdirilməsi;
6.16.4. təkrar ali təhsil və orta ixtisas təhsili;
6.16.5. dərəcələrin yüksəldilməsi.

6.17. Akademiyada əlavə təhsil ödənişli əsaslarla həyata keçirilir.

6.18. Akademiyada ixtisaslar üzrə tədris prosesinin təşkili ali təhsil pilləsinin dövlət təhsil standartına və proqramına, habelə müvafiq ixtisaslar üzrə təhsil proqramına uyğun hazırlanmış və Akademiyanın rektoru tərəfindən təsdiq edilmiş tədris planı əsasında həyata keçirilir.

6.19. Akademiya tədris prosesinin forma, metod və vasitələrini müəyyən edərkən, *təhsil* proqramlarının və tədris

planlarının tam həcmdə mənimsənilməsinə şərait yaradır.[22]

6.20. Akademiyada eyni zamanda beynəlxalq təhsil proqramları həyata keçirilir. Beynəlxalq təhsil proqramları üzrə mütəxəssis hazırlığı beynəlxalq müqavilələr, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu və bu Nizamnamə ilə tənzimlənir.

6.21. Təhsilalanların bir təhsil proqramından digərinə və ya Akademiyadan başqa ali təhsil müəssisəsinə köçürülməsi, xaric edilməsi, Akademiyaya bərpa olunması və onlara akademik məzuniyyət verilməsi məsələləri Azərbaycan Respublikasının *Elm və Təhsil* Nazirliyi tərəfindən müəyyən edilir.

6.22. Doktoranturada təhsilini başa vurmuş və müvafiq elmi dərəcə almış şəxslərə həmin elmi dərəcəni təsdiq edən vahid *formalı dövlət sənədi - diplom* verilir.[23]

6.23. Akademiyada tədrisin təşkilinə və həyata keçirilməsinə Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyi nəzarət edir.

## 7. Akademiyanın elmi tədqiqat fəaliyyəti

7.1. Akademiyada mütəxəssis hazırlığı elmlə təhsilin vəhdəti əsasında həyata keçirilir.

7.2. Akademiyanın elm sahəsində fəaliyyəti elmi tədqiqat işlərinin aparılmasına, Akademiyanın profilinə uyğun olaraq elmin müvafiq sahələrinin inkişafına, elmi tədqiqatların nəticələrinin tədris prosesində tətbiqinə yönəldilir.

7.3. Akademiyada aparılan elmi tədqiqat işləri fundamental*, nəzəri-metodoloji, pedaqoji-metodiki* və tətbiqi xarakter daşıyır.

7.4. Akademiya apardığı elmi tədqiqat işlərinin nəticələrinin yaradıcılıq təcrübəsi sahəsində və tədris prosesində (mühazirə, məşğələ, seminar və laboratoriya dərslərində, kurs layihələrində, kurs və buraxılış işlərində, magistr dissertasiyalarında) tətbiq olunmasını və onların monoqrafiyalar, elmi məqalələr, metodik vəsaitlər şəklində dərc olunmaqla, elmi forumlarda məruzə edilərək yayılmasını təşkil edir.

7.5. Akademiyada həyata keçirilən elmi tədqiqat fəaliyyətinin məqsədi aşağıdakılardan ibarətdir:

7.5.1. fundamental*, nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi* araşdırmaların aparılmasını, elmi tədqiqat və elmi-texniki işlərin həyata keçirilməsini təmin etmək;[24]

7.5.2. elmi xarakterli tapşırıqları icra etmək;

7.5.3. kadrların elmi potensialından səmərəli istifadə etməklə təlimin keyfiyyətini yüksəltmək;

7.5.4. təhsilverənlərin ixtisas səviyyəsini artırmaq;

7.5.5. elmi tədqiqatların nəticələrinin və nailiyyətlərinin tətbiqini təşkil etmək;

7.5.6. tədris və elmi proseslərin vəhdətini təmin etmək;

7.5.7. elmi tədqiqat işlərinin nəticələrini tədris prosesində, mədəniyyət, o cümlədən incəsənət sahəsində tətbiq etmək;

7.5.8. elmi tədqiqat işlərinin əsas istiqamətləri üzrə milli və beynəlxalq təcrübəni öyrənmək və ümumiləşdirmək;

7.5.9. müraciət əsasında dövlət və qeyri-dövlət qurumları üçün analitik, məsləhət və proqnozlaşdırma fəaliyyətini həyata keçirmək;

7.5.10. hüquqi aktların layihələrinin hazırlanmasında və ekspertizasının keçirilməsində iştirak etmək;

7.5.11. milli və xarici ekspertlərin iştirakı ilə elmi seminarlar, konfranslar, simpoziumlar və konqreslər keçirmək.

7.6. Akademiyada elmi tədqiqat işlərinin istiqamətlərini Elmi Şura müəyyən edir.

7.7. Akademiyanın elmi tədqiqat fəaliyyəti Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyi ilə razılaşdırılmaqla, Elmi Şuranın təsdiq etdiyi perspektiv və cari planlara uyğun olaraq həyata keçirilir.

## 8. Akademiyada təhsilalanlar və təhsilverənlər

8.1. Akademiyanın təhsilverənləri rəhbərlikdən, professor-müəllim heyətindən, elmi işçilərdən və ştat cədvəli ilə müəyyən edilmiş digər işçilərdən ibarətdir.

8.2. Azərbaycan Respublikası Mədəniyyət ~~və Turizm~~ Nazirliyinin nomenklaturasına daxil olan Akademiyanın təhsilverənlərinə aid olan prorektorlar, bədii rəhbər və baş mühasib vəzifələrinə kadrların təyin və azad edilməsi Akademiya rektorunun təqdimatı əsasında Azərbaycan Respublikasının mədəniyyət ~~və turizm~~ naziri tərəfindən, digər vəzifələrə kadrların təyin və azad edilməsi Akademiyanın rektoru tərəfindən həyata keçirilir.

8.3. Təhsilverənlər vəzifələrinə peşə hazırlığına, sağlamlığına və mənəvi keyfiyyətlərinə görə müasir tələblərə uyğun dərs keçmək və elmi tədqiqatlar aparmaq bacarığına malik olan şəxslər təyin edilirlər. Elmi dərəcəsi və elmi adı, vəzifənin profilinə uyğun ali təhsili, pedaqoji təcrübəsi olan şəxslər professor-müəllim heyəti vəzifələrinə təyinat zamanı üstünlüyə malikdirlər.

8.4. Akademiyanın işçi heyətinə daxil olan şəxslərin, o cümlədən Akademiyanın inzibati, inzibati-idarəetmə, inzibati-təsərrüfat, mühəndis-texnik, tədris-köməkçi heyətinə aid şəxslərin hüquq və vəzifələri Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Əmək Məcəlləsi, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, bu Nizamnamə, Akademiyanın daxili intizam qaydaları, Azərbaycan Respublikası Mədəniyyət ~~və Turizm~~ Nazirliyinin normativ hüquqi aktları və işəgötürənlə işçi arasında bağlanılan əmək müqavilələri ilə tənzimlənir.

8.5. Təhsilverənlərin vəzifələri aşağıdakılardır:

8.5.1. təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;

8.5.2. təhsil proqramlarının *(kurikulumların)* mənimsənilməsini təmin etmək*, keyfiyyətli təhsil vermək*;[25]

8.5.3. təhsilalanlarda fəal vətəndaş mövqeyi formalaşdırmaq, onları vətənpərvərlik və azərbaycançılıq ruhunda tərbiyə etmək, müstəqil həyata və əmək fəaliyyətinə hazırlamaq;

8.5.4. təhsilalanları elmi fəaliyyətə cəlb etmək;

8.5.5. ~~şəxsi nümunəsi ilə~~ təhsilalanlarda Azərbaycan Respublikasının *müstəqilliyinə*,Konstitusiyasına və qanunlarına,

dövlət rəmzlərinə, Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, dilinə, adət və ənənələrinə, milli və ümumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə hörmət və qayğı hissləri aşılamaq;[26]

8.5.6. *etik davranış qaydalarına,* pedaqoji etika və əxlaq normalarına riayət etmək, müəllim nüfuzunu yüksək tutmaq, ziyalılıq nümunəsi göstərmək;[27]

8.5.7. təhsilalanların şərəf və ləyaqətinə hörmət etmək;

8.5.8. təhsilalanları fiziki və psixi zorakılığın bütün formalarından qorumaq, onları zərərli vərdişlərdən çəkindirmək , *onların təhlükəsizliyinin və sağlamlığının mühafizəsində iştirak etmək*;[28]

8.5.9. ixtisas və elmi-pedaqoji səviyyəsini yüksəltmək, elmi araşdırmalar aparmaq, *qabaqcıl pedaqoji təcrübə, müasir interaktiv təlim metodlarını, innovasiyaları öyrənmək və tətbiq etmək,* əlavə məşğələlər keçmək;[29]

*8.5.10. attestasiyadan (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə sertifikatlaşdırmadan) keçmək;*

*8.5.11. Akademiyanın daxili intizam qaydalarına əməl etmək və əmək müqaviləsi ilə müəyyənləşdirilmiş əmək funksiyalarını yerinə yetirmək;*[30]

*8.5.12. valideynlərlə əməkdaşlıq etmək, təhsilalanların təlim nailiyyətləri barədə valideynləri məlumatlandırmaq;*

*8.5.13. Akademiyanın rəhbərliyi, psixoloqu və həmkarları ilə əməkdaşlıq etmək, təhsilalanların təlimi və inkişafı ilə bağlı məsləhətləşmələr aparmaq.*[31]

8.6. Təhsilverənlərin aşağıdakı hüquqları vardır:

8.6.1. normal əmək, elmi-pedaqoji iş və təhsil şəraiti ilə, müasir standartlara cavab verən texnologiyalarla təmin olunmaq;

8.6.2. bu Nizamnaməyə uyğun olaraq, təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək , *təkliflər irəli sürmək*;[32]

8.6.3. tədrisin formasını, metodlarını və vasitələrini sərbəst seçmək*, tədris-metodik vəsaitlərlə təmin olunmaq*;[33]

8.6.4. şərəf və ləyaqətinə hörmətlə yanaşılmasını tələb etmək;

8.6.5. Akademiyada vəzifə tutmaq, *seçkili* vəzifələrə seçmək və seçilmək;[34]

8.6.6. əlavə təhsil almaq, elmi dərəcəsini yüksəltmək;

8.6.7. qanunlara və Azərbaycan Respublikası Prezidentinin aktlarına uyğun olaraq mükafatlandırılmaq və təltif olunmaq.

8.7. Akademiyada təhsilalanlar şagirdlərdən, tələbələrdən, dinləyicilərdən və doktorantlardan (dissertantlardan) ibarətdir.

8.8. Şagird və tələbələr – Akademiyada təhsil alan şəxslərdir.

8.9. Dinləyicilər – Akademiyada əlavə təhsil alan şəxslərdir.

8.10. Doktorantlar (dissertantlar) – Akademiyanın müvafiq struktur bölməsində *xüsusi elmi* hazırlıq keçən şəxslərdir. [35]

8.11. Təhsilalanların vəzifələri aiddir:

8.11.1. dövlət təhsil standartına uyğun biliyə, bacarığa və vərdişlərə yiyələnmək;

8.11.2. təhsilverənlərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;

8.11.3. bu Nizamnamənin tələblərinə riayət etmək;

8.11.4. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə, etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara əməl etmək*;*

*8.11.5. üzrsüz səbəblərdən dərsdənyayınma hallarına yol verməmək, verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirmək;*

*8.11.6. sağlam həyat tərzi keçirmək;*

*8.11.7. dövlət, cəmiyyət, ailə və özü qarşısında məsuliyyətini dərk etmək.* [36]

8.12. Təhsilalanlar aşağıdakı hüquqlara malikdir:

8.12.1. *mənəvi-psixoloji cəhətdən sağlam pedaqoji mühitdə* dövlət təhsil standartına uyğun keyfiyyətli təhsil almaq;[37]

8.12.2. Akademiyanın tədris planlarına uyğun olaraq, tədris fənlərini, semestrlər üzrə kreditlərin miqdarını, təhsilverənləri və akademik məsləhətçiləri sərbəst seçmək;

8.12.3. Akademiyanın mövcud infrastrukturundan (tədris-istehsalat, elmi tədqiqat, informasiya, mədəni-məişət, idman və sağlamlıq mərkəzlərindən, yataqxanalardan, *laboratoriyalardan,*kitabxanalardan və s.) istifadə etmək;[38]

8.12.4. ~~ali~~ təhsil müəssisəsini və ixtisasını dəyişmək;[39]

8.12.5. elmi tədqiqat fəaliyyəti ilə məşğul olmaq;

8.12.6. *həyat və sağlamlığı* üçün təhlükəsiz və zərərsiz təhsil şəraiti ilə təmin olunmaq;[40]

8.12.7. ~~Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada~~ biliyinin yenidən qiymətləndirilməsini tələb etmək;[41]

8.12.8. təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək, öz fikir və mülahizələrini sərbəst ifadə etmək;

8.12.9. Akademiyanın elmi, ictimai, sosial və mədəni həyatında*, elmi cəmiyyətlərin, dərnəklərin, assosiasiyaların, birliklərin və digər təşkilatların yaradılmasında iştirak etmək, eləcə də ölkə və beynəlxalq səviyyəli belə təşkilatlara üzv olmaq*;[42]

*8.12.10. təhsillə bağlı inkişafyönlü tədbirlərdə (olimpiada, bilik yarışları, fənn müsabiqələri, konfrans, seminar, proqram və layihələrdə) iştirak etmək;*[43]

*8.12.11. şərəf və ləyaqəti aşağılayan, fiziki, mənəvi və psixoloji zorakılıq hallarından, insan hüquqlarına zidd hərəkətlərdən müdafiə olunmaq;*

*8.12.12. müəyyən edilmiş qaydada Akademiyada təhsilini müvəqqəti dayandırmaq;*

*8.12.13. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;*

*8.12.14. bilik və bacarıqlarını təkmilləşdirmək üçün məktəbdənkənar təhsil müəssisələrinin imkanlarından istifadə etmək.*[44]

## 9. Akademiyanın maliyyə-təsərrüfat fəaliyyəti

9.1. Akademiyanın əmlakı dövlət və Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyi tərəfindən onun istifadəsinə, hüquqi və fiziki şəxslər tərəfindən onun mülkiyyətinə və ya istifadəsinə verilən və bu Nizamnamədə öz əksini tapan fəaliyyəti nəticəsində əldə etdiyi əmlakdan, o cümlədən ona məxsus əqli mülkiyyət məhsullarından ibarətdir.

9.2. Akademiya mülkiyyətində və istifadəsində olan əmlakın saxlanılması, qorunması və ondan səmərəli istifadə edilməsi üçün məsuliyyət daşıyır.

9.3. Akademiya bu Nizamnaməyə əsasən göstərdiyi xidmətlər ( *təhsil*, elmi tədqiqat, məsləhət-konsaltinq və digər xidmətlər) nəticəsində daşınar və daşınmaz əmlak, o cümlədən bina, avadanlıq, yeni texnologiya, nəqliyyat vasitələri və s. əldə edə bilər.[45]

9.4. Akademiyanın özəlləşdirilməsi qadağandır.

9.5. Akademiya "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ödənişli təhsil xidmətləri göstərmək, sahibkarlıq *və innovasiya* fəaliyyəti ilə məşğul olmaq, ianələr və könüllü yardımlar almaq hüququna malikdir. *Sahibkarlıq və innovasiya fəaliyyətini təmin etmək üçün Akademiyanın nəzdində müvafiq təcrübə-istehsalat sahələri yaradıla, əlavə məşğələlər keçirilə, ödənişli əsaslarla dərnəklər, maraq kursları, sərgilər və s. təşkil oluna bilər. Akademiyanın işçilərinin səmərələşdirici təkliflərlə çıxış etmək və innovasiya fəaliyyəti ilə məşğul olmaq hüququ vardır.*[46]

9.6. Akademiyanın əldə etdiyi mənfəət yalnız təhsilin inkişafına, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə yönəldilir. Akademiya ödənişli təhsildən əldə olunan və digər büdcədənkənar vəsaitlərin xərclənməsi istiqamətlərini və işçilərin maddi həvəsləndirilməsinə ayırmaların xüsusi çəkisini sərbəst müəyyən edir, təhsilverənlərə və təhsilalanlara maddi yardımlar göstərir.

9.7. Akademiyanın maliyyələşdirilməsi təhsilin hər səviyyəsi üzrə müəyyən edilmiş maliyyə normativlərinə əsasən həyata keçirilir. Bu normativlər hər bir təhsilalana düşən məsrəf məbləği nəzərə alınmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

9.8. Akademiya aşağıdakı mənbələrdən maliyyələşdirilir:

9.8.1. dövlət vəsaitləri hesabına;

9.8.2. ödənişli təhsildən əldə olunan vəsaitlər hesabına;

9.8.3. "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Akademiyaya verilən qrantlar, vəsiyyət olunan vəsaitlər, ianələr və yardımlar hesabına;

9.8.4. müsabiqə əsasında dövlət tərəfindən ayrılan elmi tədqiqat qrantları hesabına;

9.8.5. Akademiyanın təhsil, elm, istehsal, məsləhət (konsaltinq) və bu Nizamnaməyə uyğun olaraq digər xidmətlərdən əldə etdiyi vəsaitlər hesabına;

9.8.6. hüquqi və fiziki şəxslərin, müqavilə əsasında, əlavə təhsil məqsədi ilə ayırdıqları vəsaitlər hesabına;

9.8.7. dövlət orqanları tərəfindən maliyyələşdirilən məqsədli proqramlar və layihələr üzrə əldə olunan vəsaitlər hesabına;

9.8.8. Akademiyanın mülkiyyətində olan fiziki və mənəvi cəhətdən köhnəlmiş avadanlığın, nəqliyyat vasitələrinin və təhsil məqsədləri üçün yararsız olan digər əmlakın satışından əldə edilən vəsaitlər hesabına;

9.8.9. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq əldə olunan digər vəsaitlər hesabına.

9.9. Akademiya öz fəaliyyətinin nəticələrinin uçotunu aparır.

9.10. Akademiya bilavasitə mənfəət əldə etmək məqsədi güdmür.

## 10. Akademiyanın beynəlxalq əməkdaşlığı

Akademiyanın xarici əlaqələri və beynəlxalq əməkdaşlığı, həmçinin kadrların hazırlanması sahəsində beynəlxalq əməkdaşlığı Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, o cümlədən Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyi ilə xarici ölkələrin dövlət orqanları arasında bağlanmış sazişlər əsasında həyata keçirilir.

## 11. Akademiyanın yenidən təşkili və ləğvi

11.1. Akademiyanın yenidən təşkili və ləğvi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

11.2. Akademiya ləğv edildikdə, onun əmlakına Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq sərəncam verilir.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 11 iyul 2016-cı il tarixli **979** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 13 iyul 2016-cı il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 7, maddə 1250)**
2. 7 noyabr 2016-cı il tarixli **1096** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 16 noyabr 2016-cı il, 253 ,**

**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1803)**

3. 15 may 2017-ci il tarixli **1385** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 18 may 2017-ci il, 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 789)**
4. 16 may 2017-ci il tarixli **1398** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 18 may 2017-ci il, 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 802)**
5. 21 iyul 2017-ci il tarixli **1556** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 22 iyul 2017-ci il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7, maddə 1366)**
6. 23 aprel 2018-ci il tarixli **20** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 24 aprel 2018-ci il, 91, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 4, maddə 697)**
7. 1 mart 2019-cu il tarixli **561** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 2 mart 2019-cu il, 50, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 402)**
8. 21 may 2019-cu il tarixli **704** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 856)**
9. 19 iyul 2019-cu il tarixli **783** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 20 iyul 2019-cu il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 7, maddə 1230)**
10. 27 fevral 2020-ci il tarixli **945** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 28 fevral 2020-ci il, 45, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 2, maddə 103)**
11. 12 iyun 2020-ci il tarixli **1056** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 13 iyun 2020-ci il, 112, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 698)**
12. 7 iyul 2020-ci il tarixli **1088** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 9 iyul 2020-ci il, 131, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 868)**
13. 29 yanvar 2021-ci il tarixli **1266** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 31 yanvar 2021-ci il, 22, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 1, maddə 36)**
14. 5 fevral 2021-ci il tarixli **1281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 fevral 2021-ci il, 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 123)**
15. 3 mart 2023-cü il tarixli **2048** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı 3 mart 2023-cü il, "Xalq" qəzeti, 5 mart 2023-cü il, 50)**
16. 31 mart 2023-cü il tarixli **2083** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 31 mart 2023-cü il, "Xalq" qəzeti, 1 aprel 2023-cü il, 66)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 21 iyul 2017-ci il tarixli **1556** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 22 iyul 2017-ci il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7, maddə 1366)** ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 1.2-ci, 7.3-cü bəndlərə və 2.1.4-cü, 3.2.8-ci yarımbəndlərə "**fundamental**" sözündən sonra "**, nəzəri-metodoloji, pedaqoji-metodiki**" sözləri əlavə edilmişdir.

[2] 29 yanvar 2021-ci il tarixli **1266** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 31 yanvar 2021-ci il, 22, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 1, maddə 36)** ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 1.3-cü bəndindən, 4.7.7-ci yarımbəndindən və 8.2-ci bəndindən "**və Turizm**" və "**və turizm**" sözləri çıxarılmışdır.

3 mart 2023-cü il tarixli **2048** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı 3 mart 2023-cü il, "Xalq" qəzeti, 5 mart 2023-cü il, 50)** ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 1.3-cü, 4.13-cü bəndlərində, 4.26-cı bəndinin beşinci cümləsində, 6.3-cü bəndinin dördüncü cümləsində, 6.6-cı bəndinin üçüncü cümləsində, 6.21-ci bəndində və 4.9.3-cü yarımbəndinin birinci cümləsində "**Təhsil**" sözü "**Elm və Təhsil**" sözləri ilə əvəz edilmişdir.

[3] 29 yanvar 2021-ci il tarixli **1266** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 31 yanvar 2021-ci il, 22, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 1, maddə 36)** ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 1.4-cü, 1.7-ci bəndlərdən, 3.1.10-cu, 3.1.11-ci, 3.2.9-cu yarımbəndlərdən, 4.2-ci bənddən, 4.7.6-cı, 4.7.9-cu, 4.9.3-cü yarımbəndlərdən, 6.3-cü bəndin dördüncü cümləsindən, 6.23-cü, 7.7-ci, 8.4-cü, 9.1-ci bəndlərindən və 10-cu hissəsindən "**və Turizm**" sözləri çıxarılmışdır.

[4] 7 noyabr 2016-cı il tarixli **1096** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 16 noyabr 2016-cı il, 253, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1803)** ilə 1.5-ci bəndində "**xüsusi razılığın (lisenziyanın)**" sözləri "**lisenziyanın**" sözü ilə əvəz edilmişdir.

12 iyun 2020-ci il tarixli **1056** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 13 iyun 2020-ci il, 112, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 698)** ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 1.5-ci bəndindən "**Akademiyanın fəaliyyətinə lisenziyanın verilməsi və** " sözləri çıxarılmışdır.

[5] 11 iyul 2016-cı il tarixli **979** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 13 iyul 2016-cı il, 148, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 7, maddə 1250)** ilə yeni məzmunda 2.2.1.3-cü yarımbənd əlavə edilmişdir.

[6] 21 iyul 2017-ci il tarixli **1556** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 22 iyul 2017-ci il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7, maddə 1366)** ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 3.1.13-cü yarımbəndində "**Azərbaycan Respublikasının Qanununa**" sözləri "**və "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarına** " sözləri ilə əvəz edilmişdir.

[7] 23 aprel 2018-ci il tarixli **20** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 24 aprel 2018-ci il, 91, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 4, maddə 697)** ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 3.2.3-cü yarımbəndində "**təhsilalanların**" sözündən əvvəl "**Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq,**" sözləri əlavə edilmişdir.

[8] 29 yanvar 2021-ci il tarixli **1266** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 31 yanvar 2021-ci il, 22,**

**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 1, maddə 36)** ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 4.3-cü bəndin ikinci cümləsindən, 4.5-ci (hər iki halda) bənddən və 4.9.1-ci yarımbəndindən "**və turizm**" sözləri çıxarılmışdır.

[9] 31 mart 2023-cü il tarixli **2083** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 31 mart 2023-cü il, "Xalq" qəzeti, 1 aprel 2023-cü il, 66**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 4.7.3-cü yarımbəndindən "**və digər kredit təşkilatlarında**" sözləri çıxarılmışdır.

[10] 27 fevral 2020-ci il tarixli **945** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 28 fevral 2020-ci il, 45, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 2, maddə 103**) ilə "ADA" Universitetinin Nizamnaməsi"nin 4.10.8-ci yarımbəndində "**elmi-pedaqoji işçilərinə**" sözləri "**işçilərinə elmi və elmi-pedaqoji fəaliyyətə görə** " sözləri ilə əvəz edilmişdir.

[11] 27 fevral 2020-ci il tarixli **945** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 28 fevral 2020-ci il, 45, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 2, maddə 103**) ilə "ADA" Universitetinin Nizamnaməsi"nin 4.10.9-cu yarımbəndində "**təsdiq**" sözü "**müəyyən**" sözü ilə əvəz edilmişdir.

[12] 11 iyul 2016-cı il tarixli **979** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 13 iyul 2016-cı il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 7, maddə 1250**) ilə 4.15.5-ci yarımbənddə "**ümumi orta təhsil**" sözlərindən sonra "**, tam orta təhsil**" sözləri əlavə edilmişdir.

[13] 5 fevral 2021-ci il tarixli **1281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 fevral 2021-ci il, 27 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 123**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 5.2.1-ci yarımbənddə "**milliyyətindən**" sözü "**etnik mənsubiyyətindən**" sözləri ilə əvəz edilmişdir.

[14] 16 may 2017-ci il tarixli **1398** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 18 may 2017-ci il, 105 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 802**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 5.4-cü bəndində "**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası** " sözləri "**Dövlət İmtahan Mərkəzi**" sözləri ilə əvəz edilmişdir.

[15] 19 iyul 2019-cu il tarixli **783** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 20 iyul 2019-cu il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 7, maddə 1230**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 5.5-ci bəndinə "**müqavilələr**" sözündən sonra "**, Azərbaycan Respublikası Prezidentinin təsis etdiyi təhsil qrantı proqramı** " sözləri əlavə edilmişdir.

-

[16] 15 may 2017-ci il tarixli **1385** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 18 may 2017-ci il, 105 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 789**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 5.6-cı bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~5.6. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Akademiyaya qəbul planı barədə təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir. Azərbaycan Respublikasının Nazirlər Kabineti isə qəbul planı barədə təkliflərini Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiyaya təqdim edir. Akademiyaya qəbul planını Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiya müəyyən edir.~~

-

1 mart 2019-cu il tarixli **561** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 2 mart 2019-cu il, 50 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 402**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 5.6-cı bəndində "**qəbul planını**" sözləri "**müvafiq ixtisaslar üzrə tələbə qəbulunu**" sözləri ilə əvəz edilmişdir.

-

[17] 23 aprel 2018-ci il tarixli **20** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 24 aprel 2018-ci il, 91 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 4, maddə 697**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 6.6-cı bəndin üçüncü cümləsi yeni redaksiyada verilmişdir və dördüncü cümlə ləğv edilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~Təhsilalanların yekun attestasiyası Dövlət Attestasiya Komissiyası tərəfindən həyata keçirilir.~~

-

[18] 21 may 2019-cu il tarixli **704** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 856**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi''nin 6.7-ci bəndi ləğv edilmişdir.

[19] 5 fevral 2021-ci il tarixli **1281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 fevral 2021-ci il, 27 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 123**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 6.8-ci bəndin birinci cümləsində "**ali təhsil müəssisəsini bitirməsi barədə dövlət nümunəli sənəd**" sözləri **"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə elektron sənəd formasında yaradılan təhsil haqqında dövlət sənədi**" sözləri ilə əvəz edilmişdir.

[20] 21 iyul 2017-ci il tarixli **1556** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 22 iyul 2017-ci il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7 , maddə 1366**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 6.9-cu bənddə "**mütəxəssis**" sözündən sonra "**, elmi**" sözü əlavə edilmişdir.

[21] 27 fevral 2020-ci il tarixli **945** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 28 fevral 2020-ci il, 45, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 2, maddə 103**) ilə "ADA" Universitetinin Nizamnaməsi"nin 6.14-cü bəndində "**2003-cü il 21 fevral tarixli 857 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələrin və elmi adların verilməsi qaydaları haqqında Əsasnamə"yə**" sözləri "**2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"yə və** "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"yə" sözləri ilə əvəz edilmişdir.

[22] 12 iyun 2020-ci il tarixli **1056** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 13 iyun 2020-ci il, 112, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 698**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 6.19-cu bəndində "**peşə təhsili**" sözləri "**təhsil**" sözü ilə əvəz edilmişdir.

[23] 21 iyul 2017-ci il tarixli **1556** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 22 iyul 2017-ci il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7 , maddə 1366**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 6.22-ci bəndində "**formada dövlət nümunəli sənəd (diplom)**" sözləri "**formalı dövlət sənədi - diplom**" sözləri ilə əvəz edilmişdir.

[24] 21 iyul 2017-ci il tarixli **1556** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 22 iyul 2017-ci il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7 , maddə 1366**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 7.5.1-ci yarımbəndində "**və tətbiqi-nəzəri**" sözləri "**, nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi**" sözləri ilə əvəz edilmişdir.

[25] 5 fevral 2021-ci il tarixli **1281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 fevral 2021-ci il, 27 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 123**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 8.5.2-ci yarımbəndə "**proqramlarının**" sözündən sonra "**(kurikulumların)**" sözü və "**etmək**" sözündən sonra "**, keyfiyyətli təhsil vermək**" sözləri əlavə edilmişdir.

[26] 5 fevral 2021-ci il tarixli **1281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 fevral 2021-ci il, 27 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 123**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 8.5.5-ci yarımbənddən "**şəxsi nümunəsi ilə**" sözləri çıxarılsın və həmin yarımbəndə "**Konstitusiyasına**" sözündən əvvəl "**müstəqilliyinə,**" sözü əlavə edilmişdir.

[27] 5 fevral 2021-ci il tarixli **1281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 fevral 2021-ci il, 27 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 123**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 8.5.6-cı yarımbəndə "**pedaqoji**" sözündən əvvəl "**etik davranış qaydalarına,**" sözləri əlavə edilmişdir.

[28] 5 fevral 2021-ci il tarixli **1281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 fevral 2021-ci il, 27 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 123**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 8.5.8-ci yarımbəndə "**çəkindirmək**" sözündən sonra "**, onların təhlükəsizliyinin və sağlamlığının mühafizəsində iştirak etmək**" sözləri əlavə edilmişdir.

[29] 5 fevral 2021-ci il tarixli **1281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 fevral 2021-ci il, 27 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 123**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 8.5.9-cu yarımbənddə "**aparmaq,**" sözündən sonra "**qabaqcıl pedaqoji təcrübə, müasir interaktiv təlim metodlarını, innovasiyaları öyrənmək və tətbiq etmək,** " sözləri əlavə edilmişdir.

[30] 5 fevral 2021-ci il tarixli **1281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 fevral 2021-ci il, 27 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 123**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 8.5.10-cu və 8.5.11-ci yarımbəndlər yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~8.5.10. attestasiyadan keçmək;~~

~~8.5.11. Akademiyanın daxili intizam qaydalarına riayət etmək.~~

[31] 5 fevral 2021-ci il tarixli **1281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 fevral 2021-ci il, 27 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 123**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nə yeni məzmunda 8.5.12-ci və 8.5.13-cü yarımbəndlər əlavə edilmişdir.

[32] 5 fevral 2021-ci il tarixli **1281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 fevral 2021-ci il, 27 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 123**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 8.6.2-ci yarımbəndə "**etmək**" sözündən sonra "**, təkliflər irəli sürmək**" sözləri əlavə edilmişdir.

[33] 5 fevral 2021-ci il tarixli **1281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 fevral 2021-ci il, 27 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 123**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 8.6.3-cü yarımbəndə "**seçmək**" sözündən sonra "**, tədris-metodik vəsaitlərlə təmin olunmaq**" sözləri əlavə edilmişdir.

[34] 5 fevral 2021-ci il tarixli **1281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 fevral 2021-ci il, 27 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 123**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 8.6.5-ci yarımbənddə "**və uyğun gəldikdə seçkili**" sözləri "**, seçkili**" sözü ilə əvəz edilmişdir.

[35] 21 iyul 2017-ci il tarixli **1556** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 22 iyul 2017-ci il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7 , maddə 1366**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 8.10-cu bəndində "**elmi və elmi-pedaqoji**" sözləri "**xüsusi elmi**" sözləri ilə əvəz edilmişdir.

[36] 5 fevral 2021-ci il tarixli **1281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 fevral 2021-ci il, 27 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 123**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 8.11.4-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 8.11.5 – 8.11.7-ci yarımbəndlər əlavə olunmuşdur.

[37] 5 fevral 2021-ci il tarixli **1281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 fevral 2021-ci il, 27 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 123**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 8.12.1-ci yarımbəndə "**dövlət**" sözündən əvvəl "**mənəvi-psixoloji cəhətdən sağlam pedaqoji mühitdə**" sözləri əlavə edilmişdir.

[38] 5 fevral 2021-ci il tarixli **1281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 fevral 2021-ci il, 27 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 123**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 8.12.3-cü yarımbəndə "**kitabxanalardan**" sözündən əvvəl "**laboratoriyalardan,**" sözü əlavə edilmişdir.

[39] 5 fevral 2021-ci il tarixli **1281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 fevral 2021-ci il, 27 , Azərbaycan

**Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 123)** ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 8.12.4-cü yarımbənddən "**ali**" sözü çıxarılmışdır.

[40] 5 fevral 2021-ci il tarixli **1281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 fevral 2021-ci il, 27 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 123**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 8.12.6-cı yarımbənddə "**sağlamlıq**" sözü "**həyat və sağlamlığı**" sözləri ilə əvəz edilmişdir.

[41] 7 iyul 2020-ci il tarixli **1088** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 9 iyul 2020-ci il, 131 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 868**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 8.12.7-ci yarımbəndindən "**Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada**" sözləri çıxarılmışdır.

[42] 5 fevral 2021-ci il tarixli **1281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 fevral 2021-ci il, 27 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 123**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 8.12.9-cu yarımbənddə "**iştirak etmək**" sözləri "**, elmi cəmiyyətlərin, dərnəklərin, assosiasiyaların, birliklərin və digər təşkilatların yaradılmasında iştirak etmək, eləcə də ölkə və beynəlxalq səviyyəli belə təşkilatlara üzv olmaq**" sözləri ilə əvəz edilmişdir.

[43] 5 fevral 2021-ci il tarixli **1281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 fevral 2021-ci il, 27 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 123**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 8.12.10-cu yarımbənd aşağıdakı redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~8.12.10. elmi-praktik konfransların, seminarların, yığıncaqların, görüşlərin və Akademiyanın fəaliyyət istiqamətləri ilə bağlı digər tədbirlərin keçirilməsində iştirak etmək.~~

[44] 5 fevral 2021-ci il tarixli **1281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 fevral 2021-ci il, 27 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 123**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin yeni məzmunda 8.12.11 – 8.12.14-cü yarımbəndlər əlavə edilmişdir.

[45] 1 mart 2019-cu il tarixli **561** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 2 mart 2019-cu il, 50 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 402**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 9.3-cü bəndində "**tədris**" sözü "**təhsil**" sözü ilə əvəz edilmişdir.

[46] 5 fevral 2021-ci il tarixli **1281** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 fevral 2021-ci il, 27 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 123**) ilə "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 9.5-ci bəndə "**sahibkarlıq**" sözündən sonra "**və innovasiya**" sözləri əlavə olunmuşdur və yeni məzmunda ikinci və üçüncü cümlələr əlavə edilmişdir.